Daxili poçt göndərişlərində göndərilməsi qadağan olan mal və əşyalar:

1.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövriyyəsi qadağan olunmuş xidməti və mülki silahlar, hərbi təyinatlı bütün əşyalar, partlayıcı maddələr, hərbi texnika; [9]

1.2. pulların və poçt ödənişi nişanlarının buraxılması üçün avadanlıqlar;

1.3. insan orqanları və toxumaları;

1.4. canlı heyvanlar;

1.5. tezalışan maddələr;

1.6. zəhərli və toksikoloji maddələr;

1.7. bioloji və infeksion maddələr;

1.8. civə, kimyəvi reaktivlər və turşular;

1.9. insanın şərəf və ləyaqətini alçaldan, milli və dini hissiyatını təhqir edən materiallar;

1.10. öz xüsusiyyətlərinə və ya qablaşdırılmasına görə poçt işçiləri üçün təhlükə yarada bilən, digər poçt göndərişlərinin və poçt avadanlıqlarının zədələnməsinə, xarab olmasına və ya çirklənməsinə səbəb olan göndərişlər;

1.11. sikkələr və banknotlar;

1.12. radioaktiv maddələr; [10]

1.13. narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, onlardan istifadə üçün ləvazimatlar;

1.14. narkotik vasitələrin, psixotrop, zəhərləyici, partlayıcı maddələrin hazırlanması texnologiyasına aid materiallar;

1.15. əxlaq pozğunluğunu, zorakılığı, terrorizmi təbliğ və reklam edən materiallar;

1.16. odlu silah və onun döyüş sursatları.